**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**Q Ə R A R**

**№ 11/09**

**Bakı şəhəri** **15 may 2025-ci il**

**Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 115-VIIQD nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 115-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 27 fevral tarixli 121s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 26 fevral tarixli 9/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol hərəkəti və onun təhlükəsizliyi göstəriciləri haqqında" 2 №-li (DYP) rüblük rəsmi statistika hesabatı formasının "I bölmə. Yol hərəkəti ilə bağlı inzibati xətalar" bölməsi üzrə cədvələ aşağıdakı məzmunda 157-2 – 157-4-cü sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| **Maddə 352-1. Ödənişli avtomagistrallardan istifadə qaydalarının pozulması** | **157-2** | |
| 352-1.1. Ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olma və ya oradan çıxma | 157-3 | |
| 352-1.2. Buraxılış məntəqələrinin normal işinə mane olma, o cümlədən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin keçidini bağlama, gediş üçün maneəni özbaşına götürmə (şlaqbaumu açma) | 157-4 | |

2. “Birinci instansiya məhkəmələrində baxılmış inzibati xətalar haqqında işlər barədə” 3 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 dekabr tarixli 20/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin qərarla təsdiq edilmiş “Birinci instansiya məhkəmələrində baxılmış inzibati xətalar haqqında işlər barədə” 3 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması üzrə:

2.1.1. hər iki halda 119-cu sətir ləğv edilsin;

2.1.2. hər iki halda 145-ci sətirdə “yeyinti” sözü “qida” sözü ilə əvəz edilsin;

2.1.3. hər iki halda 193-cü sətirdə “müdafiəsini” sözü “müdafiəsi və ya qida təhlükəsizliyi sahəsində dövlət nəzarətini” sözləri ilə və “orqanının vəzifəli şəxsləri” sözləri “orqanı” sözü ilə əvəz edilsin;

2.1.4. hər iki halda aşağıdakı məzmunda 230-4-cü sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 230-4 | Kosmik fəaliyyət haqqında qanunvericiliyin pozulması | 602-4 | |

2.2. həmin qərarla təsdiq edilmiş “Birinci instansiya məhkəmələrində baxılmış inzibati xətalar haqqında işlər barədə” 3 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”in 2-ci hissəsinin iyirminci abzasında “230-3-cü” sözləri “230-4-cü” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 dekabr tarixli 21/09 nömrəli qərarı ilə təsdiq edilmiş “Birinci instansiya məhkəmələrində inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətlərə və ya protestlərə baxılmanın nəticəsi barədə” 3-1 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının (hər iki halda) 20-ci sətrində “602-3” rəqəmləri “602-4” rəqəmləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il 11 oktyabr tarixli 23/09 nömrəli qərarı ilə təsdiq edilmiş “Cinayətin növləri üzrə məhkumların sayı haqqında” 10-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 132-ci sətrində “yeyinti” sözü “qida” sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 132-1-ci sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 132-1 | Təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədilə saxlanması | 200-3 | |

5. “Prokurorun işi haqqında” 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 26/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin qərarla təsdiq edilmiş “Prokurorun işi haqqında” 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının “III BÖLMƏ. Cinayət təqibindən kənar fəaliyyətdə prokurorun iştirakı” bölməsinin “1-ci cədvəl. İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarəti” cədvəlinin 12-ci sətrində “yetkinlik yaşına çatmayanların işləri və” sözləri “uşaq” sözü ilə əvəz edilsin;

5.2. həmin qərarla təsdiq edilmiş “Prokurorun işi haqqında” 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”in 6.1.5-ci yarımbəndinin birinci cümləsində “yetkinlik yaşına çatmayanların işləri və” sözləri “uşaq” sözü ilə əvəz edilsin.

6. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

7. Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

8. Aparatın Xidmət statistikası və Sosial statistika şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.

9. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**